FATİMƏ QAZİHA

# NASİRƏDDİN ŞAH QACARIN QIZLARI

qanun nəşriyyatı

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 30 sentyabr 2024-cü il tarixli 5 saylı iclasının qərarı ilə çap olunur.**

**Fars dilindən tərcümə edən:**
**Əkrəm Bağırov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Mətn yığımı:**
**Elmira Manafova**
**Könül Cəbrayılova**

**Korrektor:**
**Əyyar Tahir**

**Fatimə Qaziha. NASİRƏDDİN ŞAH QACARIN QIZLARI**
Bakı, Qanun Nəşriyyatı, 2025, 176 səh.

Hazırkı kitab Qacarlar sülaləsinin (1795-1925) dördüncü hökmdarı Nasirəddin şahın 16 qızı haqqında çoxsaylı arxiv sənədləri əsasında qələmə alınmış əsərdir. Əsərin müəllifi Qacarlar dövrünün tanınmış tədqiqatçısı Fatimə Qazihadır. Əsli fars dilində olan bu əsər şah qızlarının həyatı fonunda dövrün ictimai-siyasi və ədəbi-mədəni həyatını dolğun şəkildə əks etdirir. Əsər tarixçi alimlərlə yanaşı geniş oxucu kütləsi üçün də nəzərdə tutulmuşdur.

ISBN 978-9952-586-80-0

© Qanun Nəşriyyatı, 2025
© Bağırov Əkrəm, 2025

## Tərcüməçidən

Kitab Qacarlar dövrünün (1795–1925) tanınmış və məhsuldar tədqiqatçısı Fatimə Qazihanın fars dilində yazıb 1399/2020-ci ildə Tehranda nəşr etdirdiyi "Nasirəddin şahın qızları" əsərinin tərcüməsidir. Bundan əvvəl biz Nasirəddin şahın Cənubi Qafqazda olduğu günlərlə bağlı onun səfər gündəliyində olan müvafiq hissələri tərcümə edib 2021-ci ildə nəşr etmişdik. Bu kitab isə Nasirəddin şahın sırf ailə həyatını, sarayın əndərun – daxili məhrəm hissəsində baş verənləri açıqlayır. Kitabın orijinalında yarım əsrə yaxın (1848–1896) hakimiyyətdə olmuş Nasirəddin şahın on altı qızı ilə bağlı çoxsaylı arxiv sənədləri araşdırılmış, onların bəzisinin mətni müvafiq bölmələrə əlavə də edilmişdir. Kitabın geniş oxucu kütləsi üçün nəzərdə tutulduğunu və həmçinin bu sənədlərin izah və şərhinin müəllif tərəfindən mətn daxilində verildiyini nəzərə alaraq o sənədlərin əksəriyyətinin Azərbaycan dilinə tərcümə edilməsinə ehtiyac duyulmamış və hazırkı kitaba da daxil edilməmişdir.

Kitabda Nasirəddin şahın on altı qızı və onların ailələri ilə bağlı zəngin məlumatlar verilmiş, onların həyatı uşaqlıq illərindən ömürlərinin sonuna qədər təsvir edilmişdir. Bütün bunlarla yanaşı Nasirəddin şah dövrünün ictimai-siyasi, ədəbi-mədəni həyatı da xırdalıqlarına qədər mətn boyu təqdim edilir.

Azərbaycan oxucusu və Qacarlar dövrünün tədqiqatçıları bu kitabda indiyə qədər açıqlanmamış, İran arxivlərində mühafizə olunan əlyazmalarda əksini tapmış olduqca maraqlı və çoxsaylı yeni faktlarla qarşılaşacaq.

**Əkrəm Bağırov**

# MÜNDƏRİCAT


Tərcüməçidən ........ 3

Müqəddimə ........ 5

Nasirəddin şahın ilk övladı birinci qızı Bəyimcan xanım Fəxr əl-Mülük ..... 22

İkinci qızı Fatimə xanım İsmət əd-Dövlə ........ 28

Üçüncü qızı Banuyi-Üzma İftixar əd-Dövlə ........ 45

Dördüncü qızı Fatimə Soltan Ziya əs-Səltənə... ........ 60

Beşinci qızı Vahiyə ........ 78

Altıncı qızı Əfsər əd-Dövlə ........ 82

Yeddinci qızı Tuman Ağa Fəxr əd-Dövlə ........ 86

Səkkizinci qızı Turan Ağa Füruğ əd-Dövlə (Mələkeyi-İran) ........ 101

Doqquzuncu qızı Zəhra xanım İran əl-Müluk İftixar əs-Səltənə ........ 112

Onuncu qızı Əxtər əd-Dövlə ........ 121

On birinci qızı Fərəh əs-Səltənə ........ 145

On ikinci qızı Zəhra Tac əs-Səltənə ........ 146

On üçüncü qızı Fatimə Naseri ........ 167

On dördüncü qızı Xədicə Naseri İzz əs-Səltənə ........ 170

On beşinci qızı Fatimə Naseri ........ 171

On altıncı qızı Əziz əs-Səltənə ........ 173

*Uca Allahın adı ilə!*

# MÜQƏDDİMƏ

Qacarlar silsiləsinin dördüncü padşahı olan Nasirəddin şah 22 zilqədə 1264-cü ildə [21 oktyabr 1848] on yeddi yaşında ikən Tehranda rəsmi şəkildə taxt-taca sahib olmuşdur. 66 illik ömrü ərzində onun çoxlu övladı olmuşdur və əlbəttə ki, onların bir qismi körpə ikən və ya kiçik yaşlarında həyatdan getmişdir. Bu uşaqlardan üçü vəliəhd olmuşdur: Soltan Mahmud Mirzə on bir aylıq ikən ölmüş, Məhəmməd Qasım Mirzə beş yaşında ikən vəfat etmiş və Soltan Müin əd-Din Mirzə də vəliəhd olmuş və kiçik yaşlarında bu dünyanı tərk etmişdir.

Soltan Hüseyn Mirzə də, Zell əs-Soltanın doğma qardaşı Xorasan hakimi olduğu vaxt, on altı yaşında ikən vəba xəstəliyindən dünyadan köçmüşdür.

Bu kitab Nasirəddin şahın qızları haqqında olduğundan lazım bildik ki, onun oğlanlarının da adlarını çəkək. Nasirəddin şahın ömür sürmüş oğlanlarının sayı bizə məlum olduğu kimi yeddi nəfər olmuş və onların doğum tarixlərinə uyğun olaraq ardıcıllıqla adları belədir:

**1 -** İsfahan və başqa yerlərin hakimi Məsud Mirzə Zell əs-Soltan 1266-cı qəməri ilində [m.1850] doğulmuşdur. Anası İffət əs-Səltənə Nasirəddin şahın siğə arvadlarından biri olmuşdur.

**2** - Sonradan şah olmuş vəliəhd Müzəffərəddin Mirzə 1269-cu qəməri ilində [m.1853] şahzadə və şahın daimi kəbinli arvadı olmuş Şükuh əs-Səltənədən doğulmuşdur.

**3** - Nasirəddin şahın üçüncü oğlu olan Kamran Mirzə Nayib əs-Səltənə 1272-ci qəməri ilində [m.1856] Münir əs-Səltənə adlı siğə arvadından doğulmuşdur.

**4** - Nüsrət əd-Din Mirzə Salar əs-Səltənə 1299-cu qəməri ilində [m.1882] siğə arvadı olmuş Zinət əs-Səltənədən doğulmuşdur.

**5** - Məhəmməd Mirzə Rükn əs-Səltənə 1301-ci qəməri ilində [m.1884] siğə arvadı olan Bədr əs-Səltənədən doğulmuşdur.

**6 -** Əhməd Mirzə Əzüd əs-Səltənə – Tac əs-Səltənənin doğma qardaşı 1308-ci qəməri ilində [m.1890] siğə arvadı şahzadə xanım Turkan əs-Səltənədən doğulmuşdur.

**7 -** Hüseynəli Mirzə Yəmin əd-Dövlə 1308-ci qəməri ilində [m.1890] Mərcan xanım Türkəmaniyədən doğulmuşdur. Fərəh əs-Səltənənin doğma qardaşı idi. İkinci Pəhləvi dövründə dövlət adyutantı vəzifəsi birinci dəfə ona verilib. Onun haqqında qısa məlumat hazırkı əsərin Fərəh əs-Səltənə hissəsinin ardında verilib. Bəzi mənbələr onu sağ qalmış oğlanlardan səkkizincisi hesab edir, yəqin on altı yaşında vəfat etmiş Soltan Həsən Mirzəni də sağ qalmışlar sırasında götürürlər.

Nasirəddin şahın hazırkı kitabın mövzusu olan qızlarından bir qismi yeniyetməlik və kiçik yaşlarında vəfat etmişdir, lakin sağ qalanlardan haqlarında məlumat ala bildiklərimiz on altı nəfər olub. Bir nəfər də bu əsərdə qeyd etdiyimiz kimi fransız qadınından doğulub, yeniyetməlik dövründə görünsə də, biz onun haqqında məlumat əldə edə bilmədik.

16 şahzadə xanım əsərdə anadan olma illəri üzrə təqdim edilmişdir və imkan daxilində onlarla bağlı olan tarixi sənədlər və həyat yolları işıqlandırılmışdır. Nasirəddin şahın sağlığında böyüyüb həddi-buluğa çatan qızlardan bəziləri əfsanəvi həyat yaşamışdır – İsmət əd-Dövlə kimi. Lakin Nasirəddin şahın qətlindən sonra boya-başa çatanlar bəzi hallarda kasıb və çətin həyat sürmüşlər.

Bunlardan birincisi Fəxr əl-Müluk idi. Fəxr əl-Müluk rəssamlıq, ağac üzərində oyma, xəttatlıq kimi sənətlərdə mahir idi və onun bu məharəti dillər əzbəri olmuşdu. O, şeir də yazırdı və təxəllüsü Fəxri idi. Əxlaqi fəzilətlər sahibi kimi təqdim edilən Fəxr əl-Mülukun xeyriyyəçilik işlərində də adı çıxmışdı. Onun ölümündən sonra məlum oldu ki, alkoqolizmə qurşanması və tiryək qəbulunda ifrata varması [vaxtsız] vəfat etməsinə səbəb olmuşdur. Bəzi tarixçilər onun nəcib əxlaqa malik olmasını onun qəşəng olmamağı ilə əlaqələndirir.O, [Nasirəddin şahın] vəliəhdlik zamanında şahzadə və kəbinli qadından doğulmuşdu. Onun bioqrafiyasında “Fəxr əl-

Mülukun Qumda evi", "Fəxr əl-Mülukun həyat yoldaşı", "Nasirəddin şahın Fəxr əl-Mülukla görüşü haqqında xatirələri", onun xasiyyətləri və övladları, xalasının ingilis səfiri ilə əlaqəsinə görə yayılmış söz-söhbət və sairə haqqında danışılır.

Nasirəddin şahın ikinci qızı İsmət əd-Dövlə naz-nemət içində böyümüş biri olub. Onun anası Tac əd-Dövlə şahzadə, sarayın mötəbər və şəxsiyyət sahibi olan qadınlarından sayıldığından, atasının səltənət sahibi olduğu dövrdə İranın ən varlı bir kişisinin gəlini oldu. Nəql edirlər ki, İran tarixində, yaxşı olar deyək ki, o, Qacarlar dövründə ölkə xaricində olan banklarda valyuta saxlayan birinci şəxs olub (Dostəli xan Müəyyir əl-Məmaliki-Xəzinədar?!) İsmət əd-Dövlə də ərə getdikdən sonra 22 qulluqçu... ilə röyada görünə biləcək bir həyat sürmüş. Şahın yanında hərəm qadınlarının da iştirak etdiyi məclislərdə piano çalırdı. Bu kitabın 32 səhifəsi İsmət əd-Dövlənin bioqrafiyasından bəhs edir.[1] Onun həyatından bəhs edən mövzular bu qəbildəndir: "İsmət əd-Dövlənin toy mərasimi pərilərin bayram təmtəraqlarına bənzəyirdi". "İsmət əd-Dövlənin həyat yoldaşı Dustməhəmməd xan", "İsmət əd-Dövlənin üç yüz metrlik cah-calallı evi", "Amerikanın İrandakı birinci səfirinin xatirələrinə görə İsmət əd-Dövlənin Firdövs bağındakı yaylaq evi" və...

Nasirəddin şahın macəralarla dolu həyat sürmüş üçüncü qızı Banuyi-Üzma [İftixar əd-Dövlə] Zill əs-Soltanın doğma bacısı olub. Onun anası İffət əs-Səltənə Nasirəddin şahın vəliəhdlik dövründə siğə arvadı olmuşdur. İftixar əd-Dövlə və ya Banuyi-Üzma Fətəli şahın nayib-əs-səltənəsi Abbas Mirzənin nəvəsi Əbülfəth xan Sarim əd-Dövlə ilə evlənmişdir. Onun qəmli taleyi, Zelli-Soltanın onunla, ölümünə fərman verməsi ilə nəticələnən düşmənçiliyi haqqında kitabda söhbət gedir. Yuxarıda qeyd etdiyimiz mövzulardan əlavə Banuyi-Üzmanın oğlanlarının Zelli-Soltanın qızları ilə toy mərasimləri haqqında Nasirəddin şahın xatirələri, Məşrutə inqilabı dövründə Banuyi-Üzmanın evinin dağıdılması, mülki ixtilaflar, ona aid olan sənədlər və sairə haqqında da bəhs edilir.

---

[1] Səhifə sayları kitabın fars dilində olan orijinalına aiddir (Ə.B.)

Nasirəddin şahın dördüncü qızı Ziya əs-Səltənə idi. Onu 1291-ci qəməri ilində [m.1874], iyirmi yaşı olmamış otuz yaşlı imam-cüməyə rəsmi ərə verirlər. Ziya əs-Səltənəyə aid olan mətləblər onun toy məclisi haqqında Nasirəddin şahın dedikləri, onun anası və dayısı vasitəsi ilə Nasirəddin şahdan ləqəb alması haqda, Ziya əs-Səltənənin həyat yoldaşı olmuş, Tehranın o zamankı imam-cüməsi Seyyid Ziya əl-Abidin Zəhir əl-İslamın bioqrafiyası haqqında, Ziya əs-Səltənə və Hac Zeyn əl-Abidinin övladları haqqında olan bölmə və sairədən ibarətdir.

Qeyd etmək lazımdır ki, Qacarlar zamanı şah qızlarından üç nəfərin Ziya əs-Səltənə ləqəbi var idi. Birinci, Fətəli şahın fəzilət və kamal sahibi olan qızı Şahbəyim Ziya əs-Səltənə, ikincisi Nasirəddin şahın həmin qızı Ziya əs-Səltənə və üçüncüsü Nasirəddin şahın nəvəsi Zəhra xanım Şəms əs-Səltənə, imam cümə və Ziya əs-Səltənənin qızı, anasının ölümündən sonra Ziya əs-Səltənə ləqəbini qəbul etmişdir. O, mərhum Doktor Müsəddiqin həyat yoldaşı idi. İstəkli oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, bu iki Ziya əs-Səltənənin də həyatının özünəməxsusluqları olduğundan, onların da bioqrafiyası maraqlananların xidmətinə təqdim olunur.

Nasirəddin şahın beşinci qızı, anası Valizadə kimi tanınan Hüma xanım olan Valiyə idi. Həqiqətdə Valiyə və Fəxr əl-Müluk Mirzə Məhəmməd xan Sipəhsaların oğlanlarının arvadları və bir-biri üçün qayınarvadı – elti idilər. Valiyə ilə bağlı kitabda dərc olunan maraqlı mətləblərdən biri Valiyənin kəbin mərasiminin atası tərəfindən nəql edilərək yazmasının şərhidir. Əsərdə Valiyənin birinci və ikinci əri də təqdim edilir.

Nasirəddin şahın məcmuədə təqdim olunan altıncı qızı Əfsər əd-Dövlədir. Yeniyetmə qızının ölümünü nəzərə almasaq başqa bacılarına nisbətən həyatın eniş və yoxuşu ilə daha az qarşı-qarşıya gəlmişdir. Əfsər əd-Dövlə 1275-ci qəməri ilində [m.1858] şahın birinci kəbinli daimi arvadı Gəlinxanımın bətnindən dünyaya gəlmişdir. O, Fəxr əl-Mülukun doğma bacısı idi və h.q. 1286-cı ildə [m.1869] Herat Fatehi Soltan Murad Mirzənin böyük oğlu Əbülfəth Mirzə Müəyyid əd-Dövləyə ərə getmişdir. Hazırkı kitabda Əfsər əd-Dövlə ilə bağlı dərc edilən bəzi mətləblər bunlardan ibarətdir: